**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN MÜASİR DEKORATİV-TƏTBİQİ SƏNƏTİNDƏ ORNAMENTAL ƏNƏNƏLƏR

| | |
|---|---|
| İxtisas: | 6218.01 – Dekorativ-tətbiqi sənət |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı: | **Mehriban Azər qızı Şəmsədinskaya** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Sevil Yusif qızı Sadıxova**

Rəsmi opponentlər: sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Rəna Həbib qızı Abdullayeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Nəzakət Vaqif qızı Səfərova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Gülnarə Vidadi qızı İbadova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Xalq rəssamı, professor
**Fuad Məmməd Emin oğlu Salayev**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri: Xalq rəssamı, professor
**Arif Möhübəli oğlu Əzizov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dekorativ-tətbiqi sənətin mürəkkəb struktur morfologiyası müxtəlif üsulların, materialların və texnikanın istifadəsinə əsaslanaraq bir çox çeşidləri müəyyən edir ki, onların çoxu əsrlər boyu xalq və peşəkar sənətdə cilalanmışdır. Bu sənətin əsas xüsusiyyəti dəzgah növlərindən (rəngkarlıq, qrafika, heykəltəraşlıq) fərqli olaraq, onun əsərlərinin ətrafdakı obyekt-məkan mühiti ilə, adi həyat mühitində adi insanların ehtiyacları ilə üzvi əlaqəsi təşkil edir. Mütəmadi olaraq yeni əsərlərlə zənginləşən müasir dekorativ-tətbiqi sənəti Azərbaycan mədəniyyətinin ayrılmaz qolu olaraq tarixi maddi və bədii dəyərlər olaraq mühüm əhəmiyyət kəsb edir. Milli bədii ənənələrinin davamçısı olan müasir Azərbaycan dekorativ sənəti inkişaf edərək qocaman usta sənətkarların bədii irsini qoruyaraq nəsildən nəslə ötürür.

Bu və ya digər şəkildə utilitar, estetik və bədii funksiyaları birləşdirən məhsulların yaradılmasına yönəlmiş müxtəlif peşə yaradıcılıq fəaliyyəti növlərini əhatə edən bədii yaradıcılıq növü olan dekorativ-tətbiqi sənət zəngin tarixə malikdir. Bu sahədə aparılan tədqiqat işləri sübut edir ki, xalqın məişəti ilə sıx bağlı olan bu el sənəti əsrlərlə formalaşmış və müxtəlif xalqların zəngin bədii irsindən bəhrələnərək inkişaf etmişdir.

Son dövrlərdə Azərbaycan dekorativ-tətbiqi sənətinin bir çox sahələri yüksəliş dövrü keçirərək nəzərə çarpan dərəcədə inkişaf etmişdir. Bunun da əsas səbəblərindən biri bu tip sənət nümunələrinin bədii xüsusiyyətlərinin kökündə duran ornamental tərtibatın əhəmiyyətli yer tutmasıdır.

Ornamentin əsasını bir neçə ümumi universal nişan – dairə, xaç, kvadrat, svastika, spiral, sınıq xətt, meandr və bir sıra digərləri təşkil edir. Onların hamısı bir zamanlar qədim insanların dünya haqqında ilkin kosmoloji və mifoloji obrazları ifadə etmiş, bir növ ideoqrafik yazı idi. Dairə – göy, ilahi qüvvələr, varlığın dövrü anlayışı ilə əlaqələndirilirdi. Kvadrat – yerin başlanğıcını, dünyanın dörd tərəfini, ilin fəsillərini simvollaşdırırdı. Xaç – yerin üstü və altı, sağı və solu fikri ilə əlaqələndirilmişdir, şaquli hissəsi dünyanın oxu və ən

çox yayılmış mifoloji təsirlərdən biri – dünya ağacı ilə müəyyən edilmişdi.

Əsrlər boyu ornament bir çox inkişaf mərhələlərindən keçmiş, sonrakı nəsillərin mistik təcrübələrini əks etdirən yeni simvollar meydana gəlmişdir. Və sonra qaçılmaz olaraq elə bir vaxt gəldi ki, işarə və kompozisiyalar kosmologiya dilindən və miflərin gizli nitqindən fərqli bədii məna əldə edərək bəzək elementlərinə çevrilmişlər. Eyni zamanda, onlar təbii dünyadan gələn stilizə edilmiş şəkillərlə zənginləşdilər.

Bəzədiyi və vizual olaraq təşkil etdiyi səthlə əlaqəli olan ornament, bir qayda olaraq, konstruksiyası, forması və rəngi ilə obyektin konstruktiv xüsusiyyətlərini, materialın təbii gözəlliyini üzə çıxarır və vurğulayır. İstənilən ornamentin kompozisiyasında simmetriya qanunlarına əsaslanan dəqiq müəyyən edilmiş tikinti nizamı var. Özündə simmetrik, yaxşı nisbət nisbəti ilə balanslaşdırılmış, ritmik olaraq nizamlanmış bir şeydir.

Sivilizasiyaların çiçəklənməsi və tənəzzülü, işğalçı müharibələri və bununla əlaqədar olaraq mədəni ənənələrin mənimsənilməsi, yeni dinlərin yaranması – bunların hamısı ornamental üslubların əhəmiyyətli dərəcədə dəyişdirilməsinə səbəb oldu. Bu proses praktiki olaraq dayandırıla bilməz. Ornament artıq reallığın bədii əksində aparıcı rol oynamır, canlı kosmoloji və mifik dilin ilkin semantik funksiyasını itirir.

Azərbaycan ornamenti haqlı olaraq Şərq bədii mədəniyyətində ən maraqlı hadisələrdən biri adlanır. O, bədii obrazların unikal dünyasını təmsil edir. Əsrlər boyu ornamenti dəyişdi, lakin həmişə öz poetikası, xətlərin və rənglərin gözəlliyi ilə insanların təxəyyülünü heyran etdi. Ənənəvi ornament müasir dövr Azərbaycan dekorativ sənətində vacib yerlərdən birini tutur. Son dövrün incəsənətində yer alan yeni təmayüllərin təsiri altında formalaşan milli ornamentin müxtəlif variasiyaları müasir dekorativ tətbiqi sənətində əksini tapan naxış quruluşunun meydana gəlməsinə səbəb oldu. Yeni bədii ideallar daşıyan üslubun formalaşma prosesində tətbiqi sənətdə yeni ornamental motivlər meydana çıxdı, yeni dekorativ həllər yarandı. Bu kimi yeni kəşflər müasir tətbiqi sənətdə müşahidə olunan ornamental

ənənələrinin öyrənilməsini, onların yerini və rolunu müəyyən etməyi aktual edir.

Beləliklə, Azərbaycanın müasir dekorativ-tətbiqi sənətində tətbiq olunmuş milli ornamentlərin tədqiqə cəlb olunması, onun bədii təhlili nəticəsində bədii xüsusiyyətlərini üzə çıxarılması kimi məsələlər müasir Azərbaycan sənətşünaslıq elminin qarşısında aktual məsələlər kimi durmaqdadır.

Azərbaycan dekorativ-tətbiqi sənətinin ornamental ənənələrinin öyrənilməsinə dair araşdırmaların içində bir sıra tədqiqatlara rast gəlmək olur. Bunlardan müxtəlif tarixi dövrləri əhatə edən dekorativ sənətin ayrı-ayrı sahələrinə həsr olunmuş elmi əsərləri, bundan başqa bu sənətlə bağlı olan sənətkarların yaradıcılığına həsr olunmuş ara-sıra mətbuatda çap olunan məqalələri göstərmək olar.

Azərbaycanda müasir dövrdə dekorativ-tətbiqi sənətdə ornamental ənənələrin əksi sahəsində "Искусство Азербайджана"[1], "Azərbaycan incəsənəti"[2], R.Əfəndinin "Декоративно-прикладное искусство Азербайджана"[3], "Azərbaycan dekorativ-tətbiqi sənəti (XI-XVIII yüzilliklər)"[4], M.Tərlanovun "Декоративно-прикладное искусство Советского Азербайджана"[5], T.Əfəndiyevin "Декоративно-прикладное искусство Азербайджана XIX – начала XX вв."[6] [174], A.Əliyevanın "Ворсовые ковры Азербайджана XIX – начала XX века"[7], K.Əliyevanın

---

[1] Искусство Азербайджана – Баку, 1976.

[2] Azərbaycan incəsənəti / Az.SSR EA Memarlıq və incəsənət institutu – Bakı – 1962 – 200 s.; Azərbaycan incəsənəti / Tərt. ed. Salamzadə Ə., Kərimov K., Rzayev N., Əfəndiyev R., Həbibov N. – Bakı: Maarif – 1977.– 212 s.; Azərbaycan incəsənəti / Tərt. ed. Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov N. – Bakı: İşıq – 1992 – 344 s.

[3] Эфенди, Р. Декоративно-прикладное искусство Азербайджана / Р.Эфенди – Баку: Ишыг-1976-190 с.

[4] Əfəndi, R. Azərbaycan dekorativ-tətbiqi sənəti (XI-XVIII yüzilliklər) [Mətn] / R.Əfəndi – Bakı: Çaşıoğlu – 1999 – 172 s.

[5] Тарланов, М.А. Декоративно-прикладное искусство советского Азербайджана – Баку-1968 -134 с.

[6] Эфендиев, Т.Р. Декоративно-прикладное искусство Азербайджана XIX начала XX вв./ Т. Эфендиев – Баку: Чашыоглу – 2003 – 152 с.

[7]Алиева, А. Ворсовые ковры Азербайджана XIX – начала XX века / А. Алиева – Баку: Элм – 1987.

“Безворсовые ковры Азербайджана” və “Тебризская ковровая школа XVI-XVII вв.”[8], S.Sadıxovanın “Новые тенденции в ювелирном искусстве Азербайджана”[9], “Орнамент и современное ювелирное искусство Азербайджана”[10], “Ювелирное искусство Азербайджана в контексте развития многосторонних культурных взаимо-связей”[11] və s. tədqiqatlarda Azərbaycan incəsənətinin ayrılmaz qolu olan dekorativ-tətbiqi sənətin müxtəlif sahələri haqqında məlumat verilib.

Azərbaycan sənətşünaslığında ən çox araşdırılan sənət sahəsi xalçaçılıqdır ki, bu sənət növü müxtəlif sənətşünas alimlər tərəfindən geniş təhlil olunmuşdu. Bu tədqiqatlarda xalça sənətinin yaranma tarixi, növləri, məktəbləri, bədii-texniki xüsusiyyətləri tədqiq və təhlil edilmişdi. Bu sahədə araşdırmalar aparan tədqiqatçı alimlərdən Lətif Kərimovun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Onun “Azərbaycan xalçası” üçcildliyi[12] Azərbaycan xalça sənətinin ensiklopediyası sayılır. Xalça tədqiqatçıları olan N.Abdullayeva[13], R.Tağıyeva[14] və V.Muradovun[15] silsilə əsərlərində Azərbaycan xalçalarının ornamental tərkibi, kompozisiya quruluşu və naxışların

---

[8] Алиева, К.М. Безворсовые ковры Азербайджана / К.М. Алиева – Баку: Язычы – 1983 – 46 с.; Алиева, К.М. Тебризская ковровая школа XVI-XVII вв. / К.М. Алиева – Баку: Элм –1999 – с. 268.

[9] Садыхова, С.Ю. Новые тенденции в ювелирном искусстве Азербайджана // «Культура и искусство Азербайджана: актуальные проблемы» (материалы научно-практической конференции) – Баку – 2003 – с.74-78.

[10] Садыхова, С.Ю. Орнамент и современное ювелирное искусство Азербайджана // «Азербайджан и азербайджанцы» – орган Президиума НАН Азербайджана – Баку – 2009, Vol.103-104, №1-2 – с.239-243.

[11] Садыхова, С.Ю. Ювелирное искусство Азербайджана в контексте развития многосторонних культурных взаимосвязей / С.Ю. Садыхова – Баку: Элм – 2009 – 274 s.

[12] Керимов, Л. Азербайджанский ковер [в 3-х томах] / Л.Керимов – Баку: Гянджлик – 1983, т. II.

[13] Абдуллаева, Н.А. Ковровое искусство Азербайджана / Н.А. Абдуллаева – Баку: Элм – 1971.

[14] Tağıyeva, R. Azərbaycan xalçası / R.Tağıyeva – Bakı – 1999; Тагиева, Р. Сюжетные ковры Азербайджана / Р.Тагиева – Баку: Ишыг –1986 – 114 с.

[15] Muradov, V.A. Naxçıvan xalçaçılığı: ənənə və müasirlik (Azərbaycan, rus ingilis dillərində) / V.A.Muradov – Bakı: Elm – 2017 – 284 s.; Мурадов, В.А. Нахчыванские ковроткачи / В.А. Мурадов – Москва: Бюджет – 2014 – 280 с.

semantikası araşdırılır. Xalça sənətinin tədqiqinə həsr olunmuş dissertasiya işləri də son illərin məhsuludur. Bu sırada A.A. Məmmədovanın "Ковровое искусство Азербайджана (1950-90 гг.)"[16], M.M.Kazımovanın "Azərbaycanda ağacoyma sənətinin bədii xüsusiyyətləri"[17], S.A.Səlimzadənin "Müstəqillik dövründə Azərbaycanda xalça sənətinin inkişafı və onun bədii xüsusiyyətləri"[18], X.V. Əsədovanın "Azərbaycan xalça naxışlarının semantikası və bədii xüsusiyyətləri"[19] və d. elmi əsərlərini qeyd etmək olar.

Azərbaycanı dekorativ-tətbiqi sənətinin digər sahələrinə də həsr olunmuş tədqiqat işləri, o cümlədən M.M. Kazımovanın[20], H.K.Paşayevin[21], A.M.Şirəliyevanın[22], Ü.N.Həmidovanın[23] və b. əsərləri müəyyən maraq doğurur.

Bütün bunlarla yanaşı, Azərbaycan sənətşünaslıq elmində müasir tarixi dövrdə inkişaf tapmış dekorativ-tətbiqi sənətində müşahidə olunan ornamental ənənələrinə həsr olunmuş araşdırmalar

---

16 Мамедова, А.А. Ковровое искусство Азербайджана (1950-90 гг.): /дис. на соиск. канд. иск-дения – Баку – 1994 – 172 с.

17 Kazımova, M.M. Azərbaycanda ağacoyma sənətinin bədii xüsusiyyətləri:/ sənətşünaslıq üzrə fəlsəfə doktoru dis./ – Bakı – 2015.

18 Səlimzadə, S.A. Müstəqillik dövründə Azərbaycanda xalça sənətinin inkişafı və onun bədii xüsusiyyətləri:/ sənətşünaslıq üzrə fəlsəfə doktoru dis./ – Bakı – 2017.

19 Əsədova, X. Azərbaycan xalça naxışlarının semantikası və bədii xüsusiyyətləri:/ sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / Bakı – 2010 – 150 s. əlavə: 104 s. şək.

20 Kazımova, M.M. Azərbaycanda ağacoyma sənətinin bədii xüsusiyyətləri / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis./ – Bakı – 2015.

21 Paşayev, H. Xalq sənətini yaşadan müasir sənətkarlar // - Bakı: AMXM, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri – 2014, №2 (14), – ss.25-30; Cəmaləddin Əyyubov. Milli ənənələri yaşadan rəssam-sənətkar / H.Paşayev – Bakı: ADNA – 2018 – 150 s.

22 Şirəliyeva, A.Ə. Rəşid Məmmədovun zərgərlik sənətində milli üslub // - Bakı: AMEA, İncəsənət və mədəniyyət problemləri – 2009, №1-2 (7-28), – ss. 212-218; Bakı zərgərlik sənətində ənənə və novatorluq // - Bakı: AMXM, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri – 2010, №1(3), – ss. 89-96; Nina Paşayevanın şəbəkə bəzəklərinin bədii xüsusiyyətləri // - Bakı: AMXM, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri – 2011, №1(7) – ss. 94-98; Zərgər Hacı Şamov yaradıcılığına bir baxış // - Bakı: AR Mədəniyyət və Turizm Nazirliyi, Mədəni həyat –2012, №3/4, – ss. 78-80.

23 Həmidova, Ü.N. Qobelen sənətimiz bu günü // - Bakı: İncəsənət – 2001, №11, sentyabr; Müasir Azərbaycan qobeleninin yaranması və inkişafı (1960-1990-cı illər) / : sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı: – 2002.

yox dərəcəsindədir. Xüsusilə müstəqillik dövründə fəal yaradıcılıqla bağlı olan rəssamların və sənət ustaların yaradıcılığı sənətşünaslıq araşdırması obyektinə çevrilməmişdi. Bu baxımdan, seçilmiş mövzunu aktual hesab etmək olar.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın predmetini XX əsrin əvvəllərindən başlayaraq müasir dövrümüzədək Azərbaycan dekorativ-tətbiqi sənətində ornamental ənənələrin bədii tərtibat xüsusiyyətlərinin öyrənilməsi təşkil edir.

Tədqiqatın obyekti kimi dekorativ-tətbiqi sənət sahələri üzrə aparılmış arxeoloji nümunələr, peşəkar, eləcə də Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən yerli sənətkarların yaradıcı fəaliyyətlərinə dair nümunələr, o cümlədən xalça, bədii tikmə, keramika, zərgərlik və s. çıxış edir.

Tədqiqat obyektinin əsasını əsasən təxminən son yüz ilimizə təsadüf edən və respublika ərazisində, eləcə də muzey eksponatlarında qorunan nümunələr və yazılı mənbələr təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycanın müasir dekorativ-tətbiqi sənətinin bədii tərtibatda tətbiq edilən ornamental xüsusiyyətlərinin zənginliyini üzə çıxarmaq, onların təşəkkül və bədii təkamül prinsiplərinin inkişaf xüsusiyyətlərini müəyyən etmək tədqiqatın məqsədini təşkil edir.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr təyin olunmuşdu:

- müasir Azərbaycanın bədii toxuculuq sənətinin xalça, qobelen, bədii parça və tikmə növlərinin ornamental ənənələrini araşdırmaq;
- Azərbaycan müasir keramika sənətində bəzək motivlərinin istifadə üsullarını müəyyən etmək;
- müasir dövr Azərbaycan bədii metalişləmə, o cümlədən zərgərlik sənətində istifadə olunan ənənəvi ornamental elementlərini araşdırmaq;
- müasir Azərbaycanın bədii oyma sənətində ənənəvi ornamental xüsusiyyətləri üzə çıxarmaq;

- müasir Azərbaycanın dekorativ-tətbiqi sənətində ornamental ənənələrin bədii xüsusiyyətlərini müəyyən edərək əhəmiyyətini göstərmək və bu sənətin sənətşünaslıq elmindəki yerini və rolunu müəyyən etmək.

**Tədqiqat metodları.** Dissertasiyada irəli sürülmüş məqsəd və vəzifələr Azərbaycanın müasir dekorativ-tətbiqi sənətinin ornamental ənənələrinin hərtərəfli öyrənilməsi prinsiplərinə əsaslanan tədqiqat işinin metodologiyasını müəyyən etmişdir. Kompleks sənətşünaslıq tədqiqatı prinsiplərinə əsaslanan tədqiqat müqayisəli tarixi, müqayisəli mədəniyyət metodlarına, o cümlədən ayrı-ayrı faktların empirik müqayisəsinə və əsərlərin bədii təhlilinə əsaslanaraq tədqiq olunan dövrün dekorativ-tətbiqi sənətin əsas qanunauyğunluqları və təmayüllərini müəyyən etmək məqsədi daşıyırdı.

Tədqiqat işi milli və ümumbəşəri bədii dəyərlərə, sənətşünaslığın elmi-nəzəri qənaətlərinə əsaslanır. Müəllif dissertasiya işi üzərində iş zamanı tanınmış dekorativ-tətbiqi sənət ustalarının təcrübəsinə əsaslanmış, həmin ustaların klassik irsindən nümunələrdən istifadə etmişdir. Müasir dövr Azərbaycan tətbiqi sənət əsərlərinin təhlili tarixi-xronoloji ardıcıllığa əsasən aparılmışdı. Dekorativ sənət məmulatlarının bədii xüsusiyyətlərinin təhlili seçilmiş növlərinin texnoloji üsullarına arxalanaraq aparılmışdı. Tədqiqatda araşdırılan dekorativ sənət nümunələrinin ornamental bazasının tədqiqi zamanı müasir kulturoloji fikrin, tarix, arxeologiya, etnoqrafiya elmlərinin nəzəri qənaətlərindən istifadə edilmişdi. Tədqiqat zamanı ölkə və xarici sənətşünasların seçilmiş mövzu ilə bağlı araşdırmaları nəticəsində əldə etdikləri nailiyyətləri əsas götürülmüşdü.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- müasir dövrdə yaradılan parçaların bədii tərtibatında naxışvurma xüsusi yer tutur;
- basma naxışlı ipək parçalar ənənəvi xalça kompozisiyaları ilə bəzədilir;
- müasir dövrdə Azərbaycanın bir çox bölgələrində geniş istifadə olunan bədii tikmədə təkəlduz texnikasına üstünlük verilir;
- müasir qobelenlərin toxunması zamanı metal, şüşə, plastik, dəri, kağız, fotoşəkil, saman kimi materiallar tətbiq edilir;
- müasir dövrdə Azərbaycan modelyer-dizaynerlərin yaradıcılığında yer alan ornamental motivlər geyim dəstlərinə

üzərində bədii tikmə, basma naxış üsulu ilə və applikasiya yolu ilə tətbiq edilir:

- müasir geyim modellərin etnik tərkibli ornamental tərtibatında daha çox xalça naxışlarından istifadə olunur;
- Azərbaycanın müasir keramika nümunələri ənənəvi keramika sənətinin prinsipləri və texnikaları əsasında işlənilir;
- müasir zərgərlik sənətində bir çox yeniliklərlə bərabər, Azərbaycanın milli ornament ənənələrinin köklərinə və texniki üsullarına meyl nəzərə çarpır;
- müasir ağacoyma nümunələri semantik əhəmiyyət daşıyan elementlərlə, motivlərlə, milli ornament və kompozisiyalarla tərtibatı ənənəvi texniki üsullar əsasında işlənilir;
- müasir dövrdə yaradılmış daş üzərində oyma sənətinin relyeflərində dekorativliyə və stilizasiyaya meyl nəzərə çarpır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi məhz problemin qoyuluşu ilə müəyyən olunmuş və aşağıdakı müddəalarda öz əksini tapmışdır:

1. ötən əsrin əvvəllərindən başlayaraq hazırkı dövrə kimi olan zaman çərçivəsində meydana gələn mövzu ilə əlaqədar empirik material toplanmış, sistemləşdirilmiş və təsnif olunmuşdu;
2. ilk dəfə olaraq müasir Azərbaycan dekorativ-tətbiqi sənətinin bədii toxuculuq, bədii metalişləmə və bədii oyma növlərində ornamental ənənələr üzə çıxarılmış, onların təşəkkül və təkamül prinsipləri geniş tədqiqatın obyektinə çevrilmişdir;
3. Azərbaycanın müxtəlif regionlarında tətbiqi yaradıcılıqla məşğul olan ustaların sənət əsərləri ilk dəfə olaraq sənətşünaslıq təhlilinə cəlb edilmişdi;
4. ənənəvi ornament sənətinin səciyyəvi bədii xüsusiyyətlərinin tədqiqi nəticəsində ənənələrin varisliyi və zamanla meydana gələn bədii əlaqələr müəyyən edilmişdi;
5. aparılmış sənətşünaslıq təhlili nəticəsində ornament sənətinin bədii xüsusiyyətlərinin forma-biçim və məna-məzmun bütövlüyü üzə çıxarılmışdı ki, bu da sənət ustalarının təfəkkürünü, dünyagörüşünü, dini inanclarını aşkar olunmasına imkan yaratmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Aparılan araşdırmaların əsas dəyəri ondadır ki, o, müasir Azərbaycan dekorativ-tətbiqi sənətinin əsas tərkib hissəsi olan ənənəvi ornamental bazası haqqında, xüsusən də bu sahədə çalışan müxtəlif rəssam, dizayner və sənətkarların mövzuya fərdi baxışı haqqında dolğun məlumat mənbəyidir. Müasir dövr milli dekorativ-tətbiqi sənətdə tətbiqini tapmış ornamental ənənələrin geniş təhlili Azərbaycan xalqının təsvir mədəniyyətinin qədim köklərə arxalandığını sübut edir.

Tədqiqatın nəticələri dekorativ-tətbiqi sənət sahəsi üzrə nəzəri tədqiqatlarda, muzey təcrübəsində sərgilərinin komplektləşdirilməsində, elmi-tədqiqi və pedaqoji təcrübədə istifadə oluna bilər. Dissertasiyanın materialları Rəssamlıq təmayüllü ali və orta təhsil müəssisələrinin tədris prosesində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Elmi araşdırmanın əsas məzmunu, elmi müddəa və nəticələri doqquz məqalədə öz əksini tapmış və xarici və ölkə daxili elmi konfranslarda dinlənilmişdir. Tədqiqat işi Azərbaycan Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında müzakirə olunub. Dissertasiya işi sənətşünas ixtisasına yiyələnən tələbələrə və dekorativ-tətbiqi sənətlərlə məşğul olanlara mənbə kimi faydalı ola bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrı-ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, altı paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. O cümlədən: O cümlədən: Giriş – 13.333, 1.1. – 41.749, 1.2. – 57.943, 1.3. – 28.947, 2.1. – 43.018, 2.2. – 47.820, 2.3. – 28.181, nəticə – 10.265, ədəbiyyat – 20.386 işarə olmaqla dissertasiyanın ümumi həcmi 271.326 işarədən ibarətdir. Tədqiqatın məzmununu əks etdirən illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdu.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

**Girişdə** mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, eləcə də işin elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

Dissertasiyanın "**Müasir dövrdə Azərbaycan bədii toxuculuq sənətində ornamental ənənələr**" adlı **I fəslin "Azərbaycanın müasir bədii parça və bədii tikmə sənətində ornamental ənənələrin təcəssümü"** adlı **1 paraqrafında** qeyd olunur ki, bədii tərtibatına görə naxışlı parçalar, ilk növbədə, dekorativ xarakter daşıyır. Burada istifadə olunan ornamental təsvirlər səthi, stilizə olunmuş və sərt qanunlara tabedir. Parçaların kompozisiyaları və bəzək tərkibi ritm, dəqiq nisbətlər və rəng sxeminin dekorativ istifadəsi ilə fərqlənir. Gənc rəssam Şəhla Abdullayevanın yaradıcılığına məxsus "Yeddi gözəl" poemasındakı yeddi müxtəlif ölkədən olan yeddi şahzadənin obrazlarının ipək parça üzərində yaradılmış mürəkkəb təsvirə stilizə edilmiş ənənəvi ornamentasiyaya əlavə edilmiş yeni elementlərin də daxil edilməsi parçanın olduqca mükəmməl sənət əsəri kimi estetik zövq oxşamasına heç bir şübhə yaratmır.

Müasir rəssam-dizaynerlərin yaratdığı parçaların bədii tərtibatında naxışvurma üsulu ilə bəzədilmiş parça məmulatları xüsusi yer tutur. Ədədlə hazırlanan basma naxışlı parçaların tərtib üsulu, onların motivləri, rəng qamması, bütünlüklə, sənətkarın dünyaya münasibətindən, şəxsi zövqündən və istedad dərəcəsindən asılıdır. Basma naxışlı ipək parçaların ənənəvi xalça motivli kompozisiya həllində mərkəzi nəbati ornament, haşiyə hissəsi isə həndəsi formalar üstünlük təşkil edir. Əsas ornamental motiv kimi butanın müxtəlif variasiyaları çıxış edirlər.

Azərbaycanın qədim kəlağayı sənətinin inkişaf xəttini davam etdirən Şəki şəhərində yaşayan Şamilovların bu sənət formasının məşhur və bacarıqlı ustaları hesab olunur. Kəlağayı istehsalının digər mərkəzi Azərbaycanın İsmayıllı rayonunun mərkəzi kəndi olan Basqal sənətkarlarından Abbasəli Talıbovun hazırladığı kəlağayılarda buta elementinin özünəməxsus ətraf bəzəkləri xüsusi dəyərlərlə təqdim edilir. Eləcə də nəbati elementlərin istifadəsi qeyd edilən

nümunələrin bədii ifadəsini xüsusi olaraq mükəmməl şəkildə meydana çıxardır.

Basmanın, əsasən də əllə naxışlanmış parçaların yeni intibahı XX əsrin ikinci yarısına təsadüf edir. Kompozisiya həllinin aydınlığı, rəng birləşmələri, rəssamın ideyalarının həyata keçirilməsi üçün daha ifadəli üsulların axtarışı müasir Azərbaycan rəssamlarının batika sənətində xarakter xüsusiyyəti olmuşdur. Dekorativ sənətin bu növünün ən qiymətli keyfiyyətli ona xas olan müasirlik hissidir. Rəssam İnna Kostinanın batika nümunələri arasında "Simurq" adlı silsilə əsərlərinin bədii həlli də xüsusi əhəmiyyətə malikdir. Əsərlərdəki olduqca mistik ifadəli həll rəssamın əvəzsiz yaradıcı təxəyyülünün möhtəşəm nəticəsi kimi dəyərləndirilir. Rəssamın ipək parça üzərində etdiyi bədii ifadələr içərisində onun kəlağayıların mərkəzində yerləşdirilmiş dekorativ elementlərin bədii tərtibatında istifadə edilən təsvirlər sanki "Min bir gecə" nağıllarından götürülmüş obrazlar, eləcə də əlavə detalların bəzək, naxış formaları böyük maraq doğurur.

Müasir batika sənətində uğurlu əsərlərə müəlliflik edən rəssamlardan biri də Salar Məmmədovdur. Onun "Bizim planet" adlı batika əsərindəki mövzunun diktə etdiyi məzmun açıqlaması parlaq rənglərin və uyğun ornamentlərin istifadəsində özünün uğurlu nəticəsini əldə etmişdir. Təbiət motivlərini bir araya gətirərək onların simvollaşdırılmış və fəlsəfi-məna dəyərini özünün rənglər dünyasında həll etməyi bacaraq rəssam, burada daha çox üslublaşdırma, improvizə prinsiplərindən istifadə etmişdir.

Parça tərtibatı ilə məşğul olan gənclərdən Vəfa Qurbanova əsərlərində Azərbaycanın məşhur tarixi-memarlıq abidələrindən ilham alaraq, həm də ənənəvi xalça naxışlarından, nəbati və zoomorf ornamentlərdən uğurla istifadə etmişdir. Onun "Xan bağı", "Kitabə" adlı süfrələrinin, "Qütb ulduzu", "Cahan", "Xeyir və şər" şərflərinin bədii tərtibatında qədim memarlıq abidələrindən, yerli təbiətdən götürülmüş ornamental motivlərdən, stilizə olunmuş zoomorf naxışlarından geniş istifadə olunmuşdur.

Dizayner Alina Yusupovanın ipək şərfləri, batika ustası Sevda Ağasiyevanın yaratdığı ipək pannoların kompozisiyaları, Aysel Vəliyevanın və digər müasir rəssamların yaratdığı basma naxışlı ipək

parçaların bədii tərtibatında istifadə olunan ənənəvi xalça kompozisiyalarının həllində mərkəzi nəbati ornament, haşiyə hissəsi isə həndəsi formalar üstünlük təşkil edir.

Müasir dövrdə bədii tikmə Azərbaycanın bir çox bölgələrində geniş istifadə olunur. Bədii tikmə texnikalarından üstünlük təkəlduz tikməsinə verilir. Təkəlduz ustası Mehriban Xəlilzadə bu tikmə sənətinin mərkəzi olan Şəki şəhərinin qədim ənənələrini yaşadan sənətkarlardandır. Təsvir motivləri sırasında miniatür işləmələr üstünlük verən sənətkarın tərtibat verdiyi çanta, geyim, süfrə nümunələrində əsasən Azərbaycanın qədim naxışlarından istifadə edir. Uzun illər təkəlduz sənəti ilə məşğul olan Vəfa Mustafayeva yaratdığı tikmə nümunələrində əsasən milli naxışlara, buta ornamentlərinə, Şəki Xan Sarayının divar naxışlarına üstünlük veririk. Tikmə ustasının işlədiyi dairənin içinə salınmış ornamental tikmə kompozisiyaları simmetriya, tamlıq və harmoniyası ilə seçilirlər.

Şəkidə xovlu tikmə sənətinin təmsilçisi olan Rəhman Kamiloğlu əsərlərində nümayiş etdirilən milli ruh, milli köklərimizə dayanan toxuculuq ənənələrini yeni üslubda davam etdirir. Sənətkarın əsərlərinin əsas mövzusunu yaşadığı torpağın təbiət mənzərəsi, qədim memarlıq tikililəri, məscidlər, minarələr, tarixi abidələr təşkil edir ki, bu da rəssamın milli dəyərlərə yüksək mövqeyinin göstəricisidir.

Fəslin **"Müasir Azərbaycan xalça sənətində və qobelen yaradıcılığında milli ornamentlərin özünəməxsusluğu"** adlı **2 paraqrafında** vurğulanır ki, ornamental sənətin ən gözəl təzahürü xalça sənətində özünü büruzə verir. Azərbaycan xalçaları öz formasına görə istər mövzu, istər rəng harmoniyası, istərsə də naxış elementlərinin yerləşdirilməsi baxımından hər zaman diqqət çəkmişdir.

Azərbaycanda müasir xalçaçılıqda xalça tərtibatının iki sahəsi var: tanınmış klassik ənənələri təkrar edən xalçalar və peşəkar sənətkarların ya köhnə, unudulmuş texnoloji metodları canlandırmağa və ya yeni bir bədii qərar verməyə çalışdıqları xalçalar. Eldar Mikayılzadə sənətkarların ikinci kateqoriyasına aiddir. Onun əsərlərinin bədii üslubu Təbriz xalça məktəbinin qanunlarına söykənir, bir çox əsərləri haqlı olaraq bu məktəb ənənələrinin indiki

mərhələdə inkişafının layiqli davamı sayıla bilər. Dekorativ əsərlər rəssamın geniş imkanlarını nümayiş etdirir. Koloritin mahir bilicisi olan rəssam rəng münasibətlərinin tam harmoniyasına nail olmağı bacarır.

Klassik ənənələri uğurla yaşadan sənətkarlar arasında Zəhra Əliyevanın yaradıcılığına məxsus nümunələrdə klassik xalçalara xas forma və elementlərdən istifadə əsas götürülmüşdü. Misal olaraq “Nabur”, “Qoşa Zeyvə”, “Quşlu” kimi əsərlərin adlarını çəkmək olar.

Ornamental ənənələrin kamil bilicisi kimi çıxış edən Məmmədhüseyn Hüseynovun yaradıcılığına diqqət yetirdikdə həmin ornamentasiyanı ən qədim və məna-dəyərə malik nümunələrindən istifadənin geniş tətbiqini görə bilərik. Lakin yeniliklər də rəssamın əsərlərinə fərqli ruh qataraq onların dəyərini yüksəltmişdir.

Müasir xalçaçılıq sənətində geniş fəaliyyət göstərən rəssamlardan Əkbər Nağıyevin, gənc rəssamlardan Aynurə Mürsəlovanın, Pərviz Murtuzayevin, Lalə Mehdiyevanın, Çinarə Müzəffərovanın, Kəmalə Məmmədovanın və b. yaratdıqları müasir xalçalarda ənənəvi ornamental formalarının müasir üslubda transformasiyası nəzərə çarpsa da, milli simvolika, Azərbaycan xalçalarının obraz və ornament sistemi çağdaş müəlliflərin gələcək yaradıcılıq axtarışları üçün əsas təşkil edir ki, bu da milli ənənələrin qorunmasının təminatıdır.

Müasir xalça kompozisiyalarının bədii tərtibatında novatorluq təmayülləri müşahidə olunur. Yeni kompozisiyalar, naxışlar yaradılır, klassik ornamental elementlər fərqli şərh olunur. Forma və məzmunun vəhdətinin olduğu klassik xalçalardan fərqli olaraq, müasir xalçalarda bədii-estetik dəyərlərinin əks etdirmək meyli əksər hallarda xalça kompozisiyalarında fəlsəfi-ideoloji mahiyyətin təcəssümü üzərində üstünlük təşkil edir. Süjetli xalçalarında təsvir elementlərin dəzgah rəngkarlığına xas olan üsullarla, yəni işıq-kölgə, həcm və s. tətbiqi bir yenilik sayıla bilər.

Müasir Azərbaycan rəssamlarının xalça sənətinə, onun ənənələrinə və müasir dövrdə yaşadılması ilə bağlı öz baxışlarını var. Öz əsərlərində ənənəvi xalça nümunələrinin simvolikasını dərk etməsinə çalışan rəssamlar, klassik ornamental kompozisiyalarının müasir üslubda transformasiyasını, eyni zamanda xalçanın funksional

əhəmiyyətinin genişlənməsini əks etməyə çalışırlar. Bunu əldə etmək üçün gənc rəssamları hər biri öz yaradıcılıq yolunu seçir.

Bu sırada xüsusi olaraq müasir Azərbaycan sənətkarı Faiq Əhmədi qeyd etmək lazımdır. Onun “Axan” xalçalar silsiləsi uzun müddətdir ki, rəssamın yaradıcılığının bir növ əsas göstəricisidir. Faiq Əhməd, vizual təhrifi ənənəvi Şərq xalçalarına birləşdirən sürrealistik toxuculuğu ilə tanınır. Faiq Əhmədov sənət ilə əlaqəli stereotipləri pozan, onu tarixi kontekstə köçürən konseptual əsərlər yaratmaq üçün sənətkarlıq tədqiqatının yeni metodlarını tətbiq edən yeni dalğanın müasir sənətkarlarından biridir.

Azərbaycan dekorativ-tətbiqi sənətinin nisbətən cavan növü olan qobelen müasir dövrdə inkişaf edərək gözəl sənət əsərləri ilə göz oxşayır. Xovsuz toxuculuq sənətində icra edilən sənət nümunələrində fərqli, bir-birindən dəyərli mövzularla yanaşı milli ornamental ənənələrin müasir üslubda həll edilməsi nüansı xüsusilə təqdirəlayiqdir. Bu mənada qobelen sahəsində fəaliyyət göstərən Ədhəm Yusubov, Salar Məmmədov, Fəridə Hüseynova, Svetlan İsmayılov, Adil Şıxəliyev, Tamilla Abdullayeva, eləcə də bu sahədə fəaliyyət göstərən gənc qobelen rəssamlarının Xatirə Əbdülhəmidovanın, Cəmilə Aşumovanın, Aysel Əsgərovanın, Səməni Qasımzadənin adlarını qeyd etmək olar. Azərbaycan dekorativ-tətbiqi sənətində, o cümlədən xalçaçılıqda istifadə edilən nəbati, həndəsi ornamentlərin yeni üslubda əlavə və yaxud improvizələrlə həll edilməsi həmin əsərlərin müasir dövr üçün olan inkişafını bir daha təsdiq edir.

Qobelen sənət əsərləri üçün vacib olan klassik toxuma texnikası və üsullarının qorunub-saxlanması ənənəsi ilə bərabər qobelen nümunələrinin ifadə imkanları artır, belə ki, qobelenin toxunma bazasına metal, şüşə, plastik, dəri, kağız, fotoşəkil, saman tətbiq edilərək təcrübə aparılır. Əksər halda süjetli kompozisiyalardan ibarət müasir qobelen nümunələrinin bədii tərtibatında Azərbaycanın qədim mədəniyyətini əks etdirən milli ornamentasiya, qədim simvolika və naxışlarla aparılan geniş improvizələr milli ənənələrin üzərində qurulmuş toxuculuq sənətinin müasir inkişafına dəlalət edir.

Fəslin **“Müasir dövr Azərbaycan modasında ornamental ənənələr”** adlı **3 paraqrafında** son dövrdə bir çox nailiyyətlər əldə

edən müasir moda dizaynerlərinin bədii vasitələrinin arsenalına daxil olan ənənəvi ornament olduqca möhkəm bir yer tutmasından söz açılır. Müasir geyimdə əks olunan xalq naxışının ənənəvi əsası, irsin qoruması və inkişafı, dövrlərin canlı bağlılığını təmin edir. Azərbaycan modelyer-dizaynerlərin yaradıcılığında yer alan ornamental motivlər geyim dəstlərin üzərində müxtəlif yollarla tərtib edilir: bədii tikmə vasitəsilə, basma naxış üsulu ilə və applikasiya yolu ilə. Müasir geyim modellərində qədim xalçaları bəzəyən ənənəvi ornamental naxışların həm orijinal variantları, həm də yeni interpretasiyası müasir geyim nümunələrinin həm bədii tərtibatında, həm geyim aksessuarlarının konstruktiv həllində tətbiq edilir.

Müasir Azərbaycanın moda sənayesini təmsil edən məşhur geyim dizaynerləri ənənəni yaşadaraq yaratdıqları müasir geyim nümunələrində milli elementlərdən yerində və zövqlə istifadə edərək beynəlxalq səviyyədə Azərbaycanın zəngin mədəniyyətini təbliğ etməyə, dünya geyim mədəniyyətinə uğurla inteqrasiya etməyə çalışırlar.

Tanınmış modelyer olan Fəxriyə Xələfovanın yaratdığı orijinal dizayna malik olan qadın libasları, geyim dəstləri konstruktiv quruluşu, faktura fərqliliyi, təbiətdə mövcud olan əsrarəngiz rəngləri özündə cəm etməsi baxımdan hər zaman seçilir.

İstedadlı modelyer Gülnarə Xəlilovanın üslubunu müəyyənləşdirən başlıca cəhət müəllifi olduğu müxtəlif təyinatlı və funksiyalı geyimlərində ənənəvi elementlərdən geniş istifadə etməsidir. Milli ornamentlər olan buta, islimi, mədaxildən bolluqla və yerində yararlanan modelyer, həm də ənənəvi geyimlərə müasir forma verməyə çalışır. Milli geyimlərin konstruktiv formasına çox da müdaxilə etmədən onu müasir həyat üçün praktiki vəziyyətə gətirməyi ustalıqla bacarır.

Son illər yaradıcılığı ilə bir neçə uğurlu layihələrə imza atmış Natəvan Əliyevanın canlandırdığı obrazların bir çoxu fərqli parçaları, biçimləri, müxtəlif printli materialları, iri həmdə cəlbedici aksesuarları ilə seçilir. Modelyerin yaratdığı geyim nümunələrində xüsusi vurğu Azərbaycan baş geyimlərinə və toxuma corablara yönəlib. O,  milli baş örtüyü olan kəlağayıların, şalların müxtəlif cür örtmə variantlarından istifadə edir, toxuma yun corabların

ornamentikasında milli xalça naxışlarından geniş tətbiq edir. Modelyer maraqlı üsula əl ataraq əl toxunuşlu corabları uzunboğaz çəkmələr kimi təqdim edir, eləcə də modellərini milli zərgərlik məmulatları ilə zənginləşdirir

Qədim tariximizi özünün geyim nümunələrində yaşatmağa çalışan modelyer Pərvin Hüseynova 2004-cü ildə yaratdığı "Sirli Qobustan" adlı kolleksiyasının geyim nümunələrinin dekorativ tərtibatında Qobustan qaya təsvirlərinə geniş yer vermişdir. Geyimlərin rəng ahəngi, kontrastlığı, mütənasib həlli düzgün düşülmüşdü. Geyimlərin qollarına taxılan bənd və sarğılar, ayaq bağları üçün istifadə edilmiş parçaların bədii tərtibatında iştirak edən Qobustan təsvirləri applikasiya texnikasında icra edilmişdir və tamaşaçıya həmin abu havanı yaratmağa xidmət edir.

Azərbaycan moda dünyasında artıq təsdiqini tapmış modelyer Nəzakət Əhmədova da milli ornamentlərə meyli ilə diqqət çəkir. Onun yaratdığı "Militari" adlı kolleksiyada mili geyimin elementlərini görmək olar. Modellərini qadın üst geyimi olan çəpkənin və çaxçurun müasir interpretasiyaları ilə zənginləşdirən N.Əhmədova, bu geyim elementləri ənənəvi ornamentlər olan buta və islimi naxışlarla tərtib etmişdir.

Modelyer Səbinə Hüseyn də yaradıcılığında hərbi geyim elementlərinə müraciət etmişdir. Onun yaratdığı müasir geyim dəstlərində milli kişi çuxalarına xas olan vəznələri görmək olar. Əsasən iki elementlə ibarət olan dəstlərdə modelyer don və onun üstündən geyilən arxalığın müasir təfsirini görmək olar. Modelyer geyim dəstlərinin bədii tərtibatında daha çox Azərbaycan xalçalarında tətbiq edilən ənənəvi ornamentlərdən və ölkəmizin milli ağacoyma sənəti olan şəbəkənin naxışlarından məharətlə istifadə etməyi bacarmışdır.

Dissertasiyanın "**Müasir dövr Azərbaycan bədii keramika, metalişləmə və oyma sənətində ornamental ənənələr"** adlı **II fəslin "Azərbaycanın müasir dövr bədii keramikasında ənənəvi naxış elementlərinin istifadəsi"** adlı **1 paraqrafında** göstərilir ki, əsrlərdən bəri inkişaf tapmış keramika sənətini müasir inkişaf xətti onun ornamental ənənələrin yeni elementlərlə bərabər eyni sırada getdiyini sübut edir. Müasir keramika nümunələri Azərbaycanın

ənənəvi keramika sənətinin illərin sınağından keçmiş prinsipləri və texnikaları əsasında işlənilir. Keramika sənətçiləri Azərbaycan tarixi memarlıq abidələrinin eksteryerində və interyerində nəzərə çarpan ornamental bəzəkləri tərtibat verdiyi keramika nümunələrində geniş tətbiq edirlər. Azərbaycanın müxtəlif bölgələrində istehsal edilmiş xalça nümunələrində əksini tapmış naxışlardan ilham alaraq yeni kompozisiyaların meydana gəlməsinə nail olurlar.

Keramika sahəsində fəaliyyət göstərən rəssamlardan Z.Ağamalova və Nailə Sultanovanın həyata keçirdikləri sənətkarlıq nümunələri özünün yüksək estetikliyini dəqiq işlənmiş milli ornamentasiya qanunlarının təsirləri sayəsində reallaşdırılmışdır.

Ədalət Bayramovun bir çox keramik nimçə və lövhələrində gündəlik məişət həyatı, toy kimi mərasim səhnələri yer almışdır ki, rəssam burada əsasən qadınların bəzək əşyalarının üzərində verdiyi ornamental həllin sadə forması ilə diqqəti yayındırmadan aydın təsvirin orta əsrlər naxış elementlərinə uyğunluğunu təmin etmişdir. Istedadlı rəssam Çopurov Rəhimin yaratdığı “Azərbaycan xalçaları” adlı üç hissədən ibarət keramik formalar özünün yüksək plastikası ilə yanaşı, həm də xalça elementlərinin məharətli tərənnümü ilə maraq oyadır. Keramikamçı-rəssam Cəfər Əliquliyev milli maddi dəyərlərimizə olan münasibətin yüksək ifadəsini verərək kompozisiyalarında xalça üzəridə qədim məişət əşyalarının dekorativ formalarını təsvir edərək əsərin daha maraqla baxılmasına imkan yaratmışdır.

Son illər Içəri şəhər Ənənəvi İncəsənət Mərkəzində məhsul dizaynı üzrə təlim keçmiş gənclər tərəfindən yaradılan keramika nümunələri Azərbaycanın ənənəvi dekorativ rəngkarlıq sənəti irsinin qədim prinsipləri əsasında hazırlanır. Gənc keramikaçı rəssamlar özlərinin keramika nümunələrində Qafqaz Albaniyasının iri şəhərlərindən biri olan qədim Şəki şəhərinin memarlıq incisi – Xan sarayının eksteryerini və interyerini bəzəyən naxışları, Şəkixanovların evinin interyerindəki divar rəsmləri, Qarabağ xalçalarının ornamental kompozisiyaları və naxışlarından bəhrələnmişdilər.

Gənc keramikaçı rəssamlardan Mehdi Nağıyevin, Aliyə Əliyevanın, Məhluqə Hüseynin, Aysel Mansurovanın, Əsmər Əlizadənin, Səbbihə Xankişiyevanın və b. yaratdığı müasir keramika

nümunələri Azərbaycanın ənənəvi keramika sənətinin illərin sınağından keçmiş prinsipləri və texnikaları əsasında işlənilir. Müasir keramika sənətçiləri Azərbaycan tarixi memarlıq abidələrinin eksteryerində və interyerində nəzərə çarpan ornamental bəzəkləri tərtibat verdiyi keramika nümunələrində geniş tətbiq edirlər. Gənc keramika ustaları Azərbaycanın müxtəlif bölgələrində istehsal edilmiş xalça nümunələrində əksini tapmış naxışlardan ilham alaraq yeni kompozisiyaların meydana gəlməsinə nail olurlar.

Fəslin **"Azərbaycanın müasir dövr zərgərliyində və metalişləmə sənətində ənənəvi ornamentin yeri"** adlı **2 paraqrafında** vurğulanır ki, ornamentin xüsusi rolu özünü daha bariz şəkildə zərgərlik sənətində büruzə verir. Müasir zərgərlərin yaratdıqları zinət nümunələri illərin sınağından keçmiş ənənəvi prinsiplər və texnikalar əsasında yaradılır. Azərbaycan tarix memarlıq abidələrində və xalça sənətində klassik ornamental ənənələrin tətbiqi nəticəsində müasir zərgər-dizaynerlər və metalişləmə sahəsində çalışan sənətçilər əsl sənət nümunələri meydana gətirir. Azərbaycanın bir çox ərazilərində tarixən formalaşan zəngin mədəni irs bu gün ustad sənətkarların fədakar əməyi sayəsində qorunub saxlanılır və inkişaf etdirilir.

Peşəkar zərgər ustaları olan Rəşid Məmmədov, Məhəmməd Şamov, Nina Paşayeva, Cəmaləddin Əyyubovla yanaşı, son illər artıq brendə çevrilmiş "Rəsm Azericarpets" zərgərlik kolleksiyasının təsisçisi olan Rəsminə Qürbətovanın təqdim etdiyi üzük və qolbaqlarda, sırğa və sancaqlarda həkk olunmuş qədim xalça kompozisiyaları keçmişdə əcdadlarımızın dünyagörüşü, təbiət, xeyirlə şərin mübarizəsini, varlığın əbədi məsələləri haqda təsəvvür yaradırlar.

Müasir Azərbaycan zərgərlik sənətində özünəməxsus dəsti-xətti ilə seçilən Şahin Əlipənahovun yaradıcılıq nümunələrində də klassik ornamental həlli ilə yanaşı yeni üslubun bərabər həll edilməsi meyli diqqəti cəlb edir. Misal olaraq "Ay-ulduz" adlı sırğaları göstərmək olar.

Içəri şəhər Ənənəvi İncəsənət Mərkəzində təlim keçən gənc rəssamlar ənənəvi zərgərlik sənətinin illərin sınağından keçmiş prinsipləri və texnikaları üzrə təhsil alırlar. Onların müxtəlif texniki

üsullarla hazırladığı zinət əşyalarının dizaynında Azərbaycanın qədim memarlıq abidələrində rast gəlinən ənənəvi motivlər, ölkənin ayrı-ayrı bölgələrinə aid edilən xalçaların kompozisiya quruluşu və milli ornament əsas yer tutur. Mərkəzində zərgərlik sahəsi üzrə təlim keçmiş Nərmin Mahmudun, Emil Almazovun ornament tipli yaradıcılığa əsaslanan zərgərlik sənətində bir çox yeniliklərin əlavə olunmasına baxmayaraq, Azərbaycanın milli ornament ənənələrinin köklərinə daha dərindən diqqət yetirilməsi müşahidə olunur. Onların yaratdıqları ənənəvi zinət nümunələri illərin sınağından keçmiş prinsiplər və texnikalar əsasında yaradılır. Azərbaycan tarix memarlıq abidələrində və xalça sənətində klassik ornamental ənənələrin tətbiqi nəticəsində müasir zərgər-dizaynerlər əsl sənət nümunələri meydana gətirir.

Metalişləmə sahəsi də ustad sənətkarların fədakar əməyi sayəsində qorunub saxlanılır və inkişaf etdirilir. Şəkidə metalişləmə sənətini uğurla davam etdirən Məhəmməd Məmmədovun həyata keçirdiyi samovar, qapı tutqacları, məcməyilər, şərbət qabları, kuzə, çıraq, qəndil, silah-sursatlarla yanaşı Şəki xanlarının sarayının bərpası zamanı da metal bəzək işləri demək olar ki, bütünlükdə usta Məhəmmədə həvalə edilmişdi.

XX əsrin istedadlı metal ustaları arasında Şaiq Məmmədovun da yaradıcılıq nümunələri özünün dolğun ornamental həlli ilə diqqət çəkir. Belə işlər sırasında silah-sursatdan, məişət məmulatlarından tutmuş, qadın bəzək əşyalarına qədər müxtəlif nümunələrlə rastlaşmaq olar ki, onların hər biri özünün mükəmməl ornamental həlli və quruluşu ilə zövq oxşayır. Sənətkarın yaradıcılığına məxsus silahlar arasında xəncərlər, dəbilqələr və s. geniş yer tutur. Belə misallardan biri də özünün zəngin naxış elementləri ilə diqqəti cəlb edən xəncərdir. Onun tutqac və qabının üzərindəki islimi elementlərin digər ornamental formalarla yaratdığı harmonik ifadə yüksək zövqün tərənnümüdür.

Fəslin **“Azərbaycanın oyma sənətində ornamental xüsusiyyətlər”** adlı **3 paraqrafında** Azərbaycanda incəsənətinin daha bir maraqlı növü olan bədii ağac oyma sənətinin müasir incəsənətimizdə özünəməxsus yeri vurğulanır. Müasir Azərbaycan sənətkarlarının yaratdığı ağac oyma nümunələri ənənəvi taxta

sənətkarlığının illərin sınağından keçmiş prinsipləri və texnikaları əsasında işlənilmiş semantik əhəmiyyət daşıyan elementlərlə, motivlərlə, milli ornament və kompozisiyalarla tərtib olunur. Yerli sənətkarlar tərəfindən yaşadılan ənənəvi texnoloji üsullar olan kəsmə, relyefli oyma, xatəmkarlıq, rizəkarlıq, şəbəkə, dekorativ boyakarlıq müasir ustalar tərəfindən geniş istifadə olunur.

Naxçıvanlı sənətkar Akif Həsənovun yaradıcılığına məxsus oyma işləri özünün zəngin ornamental xüsusiyyətləri ilə diqqəti cəlb edir. Rəssamın yaradıcılığında buta elementdən ya tam şəkildə dekorativ forma kimi istifadə edir, və yaxud da onun fərqli quruluşlarından hər hansı bir digər məmulatın üzərində əks etdirir. Bütün bunlar isə həndəsi və nəbati elementlərin birgə əlaqələndirilməsinin harmonik ifadəsində öz əksini tapır.

Gəncə ustası Nizami Abbasov müxtəlif növ ağaclar üzərində maraqlı oyma işləri ilə tanınır. Onun hazırladığı bədii ağac oyma işləri forma və kompozisiya baxımından müxtəlifliyi ilə seçilirlər. Rəssamın oyma naxışlı qapı lövhələri əsasən nəbati ornamentli haşıyə ilə zənginləşdirilib. Plastik təsvirin saflığı, qrafik motivlərin təfsirində qəsdən məhdudlaşdırma bəzək səthinin ən incə işlənməsi, yüksək relyefə malik olmayan, çox kiçik, diqqətlə konturla işlənmişdir.

Naxçıvanın digər ağac oyma sənətkarlarından olan Şahin Həsənovun işlədiyi nümunələrin əksəriyyəti utilitar əhəmiyyət daşısa da, onların üzərində təqdim edilmiş nəbati ornamentə əsaslanan naxışlar əsl sənət nümunəsi kimi qavranılır. Sənətkarın hazırladığı mücrü qapağının yanları xalça naxışlarını xatırladır.

Şəkinin vaxtılə məşhur şəbəkə ustası olan Əşrəf Rəsulovun oğlu Tofiq Rəsulovun şəbəkəli pəncərələri, qapı hissələri müasir memarlığa əlvanlıq bəxş edir. Onun hazırladığı iri şəbəkə lövhələrində ənənəvi xalça kompozisiyalarından götürülən motiv və elementlərin forması və koloriti xalçalarda olduğu kimi milli görkəm alır.

Içəri şəhər Ənənəvi İncəsənət Mərkəzində təlim keçmiş dizaynerlərin yaratdığı ağac oyma əsərlərində də milli ornamentasiya ənənələrinə meyl izlənilir. Mərkəzdə təlim keçmiş Aynur Salamzadənin, Nərmin Mahmudun, Aliyə Əliyevanın, Ülviyyə Şükürovanın yaratdıqları ağac oyma nümunələri ənənəvi taxta

sənətkarlığının keçmiş texniki üsulları əsasında işlənilmiş semantik əhəmiyyət daşıyan elementlərlə, motivlərlə, milli ornament və kompozisiyalarla tərtib olunub.

Eyni bədii tərtibata müasir dövrdə yaradılmış daş oyma əsərlərində də izləmək olar. Müasir dövrdə də bu sənəti yaşadan, onun sirlərinə yiyələnib gözəl sənət nümunələri yaradan sənətkarlardan əslən Şamaxının Ərəbşalbaş kəndindən olan, hazırda isə Türkiyədə yaşayan Gülxan Bəydəmirdir. Daşın üzərində incə kalliqrafik yazıları həkk edən rəssam unudulmaqda olan sənətə yeni nəfəs verməyə nail olub. Onun tondo formatlı daş üzərində həkkaklıq üsulu ilə icra etdiyi "Əhməd-Məhəmməd" adlı dekorativ kompozisiyası kalliqrafik yazı sənətinin incəliklərini əks edir.

Müasir oyma sənətinin mahir sənətkarlarından Tələt Mərdi-Həqq ustad rəssamdır. Əsasən daş üzərindəki oymalarında şəbəkə elementlərinin bədii xüsusiyyətləri ilə yanaşı, həm də nəbati elementlərin üslub təsvirlərinin plastik həllində böyük məharətin əksini görürük. Təzə pir məscidinin, Şamaxı Cümə məscidinin, Qəbələdəki yeni məscidin bütün naxışlarını, Qobunun içindəki yeni kiçik məscidin mehrabını tam özü eskizləyib yonmuşdur.

**Nəticədə** dissertasiyanın əsas müddəaları müxtəsər elmi-nəzəri yekunlar şəklində ümumiləşdirilmişdir:

1. Azərbaycanın dekorativ-tətbiqi sənət rəssamlarının əsərlərində etnik bədii ənənələrinə nostalji hisslər aydın şəkildə izlənilir;

2. müasir rəssamların yaratdığı bədii parça nümunələrində əsasən basma naxış və batika texnikasında verilən tərtibatda klassik ornamental kompozisiyalara üstünlük verilir;

3. müasir zamanda unudulmaqda olan bədii tikmə sənəti əsasən bölgələr üzrə davam etdirilir. Təkəlduz, qurama, xovlu tikmə və s. texniki üsullarla icra edilmiş ənənəvi naxış bəzəyi parlaq, əsas tonların birləşməsi üzərində qurulmuş kompozisiyanın ritmini və simmetriyasını, rəng balansını, habelə müxtəlif ornamental tərtibatı müşahidə etməklə fərqlənirlər;

4. müasir xalçaçılıq sənətini səciyyələndirən əsas xüsusiyyət ənənəvi ornamental elementlərin istifadəsi ilə yanaşı kompozisiya quruluşlarında novatorluq təmayülləri müşahidə olunur. Belə ki,

xalçalarında təsvir elementlərin dəzgah rəngkarlığına xas olan üsullarla, yəni işıq-kölgə, həcm və s. tətbiqi bir yenilik sayıla bilər;

5. müasir dövrdə qobelen sənətinin klassik səthi toxuma texnikası ənənəsi ilə bərabər qobelen nümunələrinin relyefli və hətta həcmli formaları meydana gəlir. Qobelenin bədii ifadə imkanları artıraq onun toxunma bazasına metal, şüşə, plastik, dəri, kağız, fotoşəkil, saman tətbiq edilərək təcrübə aparılır;

6. müasir geyim dizaynerlərinin yaratdığı geyim modellərində qədim xalçaları bəzəyən ənənəvi ornamental naxışların həm orijinal variantları, həm də yeni interpretasiyası müasir geyim nümunələrinin həm bədii tərtibatında, həm geyim aksessuarlarının konstruktiv həllində tətbiq edilir;

7. keramika sənətini müasir inkişaf xətti onun ornamental ənənələrin yeni elementlərlə bərabər eyni sırada getdiyini sübut edir. Burada klassik ornamental kompozisiyaların istifadəsi, eyni zamanda rəssamın fərdi yaradıcılıq təxəyyülünün nəticəsi olan yeni naxış elementlərinin meydana çıxması halları bu istiqamətdəki inkişaf xəttini əsaslandırır;

8. klassik ornamental ənənələrin davamı olan XXI əsr Azərbaycan zərgərlərin müxtəlif texniki üsullarla hazırladığı zinət əşyalarının dizaynında Azərbaycanın qədim memarlıq abidələrində rast gəlinən ənənəvi motivlər, ölkənin ayrı-ayrı bölgələrinə aid edilən xalçaların kompozisiya quruluşu və milli ornament əsas yer tutur;

9. Azərbaycanın bir çox ərazilərində tarixən formalaşan metalişləmə sənəti müasir dövrdə də inkişaf etdirilir. Bədii metal nümunələrinin ornamental tərkibi həndəsi və nəbati elementlərin sintezindən yaranaraq rəssamın fərdi yaradıcılıq zövqünü nümayiş etdirir;

10. Azərbaycanın oyma sənətində tətbiq olunan ornamental motivlərin əsas məzmununu bitki təsvirlərindən ibarət sadə və mürəkkəb lentvarı haşiyələr, zəncirlər və kalliqrafik yazılar təşkil edir.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**


1. Azərbaycanın oyma sənətində ornamental xüsusiyyətlər // Axtarışlar. AMEA-nın Naxçıvan bölməsi. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan, 2019, №3, cild 11 – s. 147-150.

2. Müasir dövr milli Azərbaycan geyim nümunələrində ornamentallıq // III Uluslararası Dergi Karadeniz Sosyal bilimler Sempozyumu (İBSESS) – Baku, 19-21 Noyabr 2019 – s. 80-83.
3. Müasir Azərbaycan dekorativ-tətbiqi sənətində ornamental ənənənin əksi // Elm, mədəniyyət və incəsənətin qarşılıqlı əlaqəsi və müasir cəmiyyətin inkişafında rolu. III Respublika elmi-nəzəri konfransı. ADMİU. Bakı, 19 dekabr 2019 – s. 207-213.
4. XX əsr Azərbaycan bədii parçalarında ornamental ənənələr // Sənət Akademiyası. BXA. Bakı, 2019, №3(8) – s. 35-38.
5. Орнаментальные особенности в современном искусстве металлообработки в Азербайджане // Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. X Международная научно-практическая конференция. Пятигорск, 19-20 декабря 2019 – с. 193-196.
6. XIX əsr Azərbaycan bədii tikmələrinin ornamental xüsusiyyətləri // Axtarışlar AMEA-nın Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan, 2019, №2, cild 10 – s.181-185.
7. XIX-XX əsr Azərbaycan zərgərliyində ornamental ənənələr // Mədəniyyət dünyası. № XXXVII. ADMİU. Bakı, 2019 – s. 95-99.
8. Использование элементов декора в современной керамике Азербайджана // Paradigmata poznani. №2. Praqa, 2019 – s. 132-135.
9. Müasir dövr Azərbaycan modasında ornamental ənənələr // Axtarışlar. AMEA-nın Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan, 2020, № 4, cild 14 – s. 137-143.
10. Отражение орнамента в современном азербайджанском декоративно-прикладном искусстве // Colloqium-journal. Warszawa, Polska, 2021 –№22 (109), c.1, c. 47-50.
11. Орнаментальные особенности современной художественной вышивки Азербайджана // Искусство глазами молодых. XVI Международная научная конференция. Сибирский Государственный институт искусств им. Дм. Хворостовского. Красноярск, 11-12 апреля 2024. с. 76-80.

Dissertasiyanın müdafiəsi 28 noyabr 2024-cü il tarixində saat 11.00-da Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Rəssamlıq Akademiyası AZ 1029, Baki şəhəri, Heydər Əliyev prospekti 26

Dissertasiya ilə Azərbaycan Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Rəssamlıq Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 07 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18 sentyabr 2024 il
Kağızın formatı: A5
Həcm: 41.425
Tiraj: 100